# “Mədəniyyətimizin incisi – Qarabağ” sərgisi

***Azərbaycan Prezidenti müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Vətənimizin ərazi bütövlüyünü bərpa etdi. 8 Noyabr – Zəfər Günü ilə əlaqədar 2021-ci il noyabrın 5-dən –2022-ci il yanvarın 31-dək Azərbaycan Milli İncəsənət Muzeyində “Mədəniyyətimizin incisi – Qarabağ” sərgisi təşkil olunacaqdır. Bu barədə muzeydən məlumat vermişlər.***




Sərgidə Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi, Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin fondlarından seçilmiş Qarabağ tarixini, mədəniyyətini və incəsənətini özündə əks etdirən eksponatlarla yanaşı, əslən Qarabağdan olan görkəmli sənət dühalarımızdan – Üzeyir Hacıbəylinin, Bülbülün və Niyazinin ev-muzeylərində onlara məxsus sənədlər, şəxsi əşyalar, hədiyyələr, fotolar, afişalar və digər qiymətli nümunələr təqdim olunacaqdır.

Sərginin məqsədi Qarabağa aid sənət incilərinin nümayiş etdirilməsi ilə yanaşı, bölgədə və xüsusən Şuşa şəhərində mövcud olmuş ab-hava, yaradıcılıq mühiti barədə doğru-dürüst məlumat verməkdir.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.-2021.- 5 noyabr.- S.15.